*Şəhid Tural Ədil oğlu Bayramlının əziz xatirəsinə.*

Onun adı Turaldı,
Düşməndən qisas aldı.
Şuşa üçün qan töküb,
Şəhidliyə ucaldı.

Uşaq ikən vuruldu,
Ona qaçqın damğası.
Xeyli vaxt bu əzabla,
Olmuşdu yaşayası.

"Nə vaxt alınacaqdır,
Bu Vətənin qisası?"
Qarabağdı ürəyi,
Cəbrayıldı dünyası.



*TURAL BAYRAMLI*
*(10 fevral 1996-cı il Beyləqan rayonu Şərq qəsəbəsi - 07 noyabr 2020-ci il Şuşa rayonu)*

O, atıldı meydana,
Döyüşdü mərd-mərdana,
Dərs verdi düşmanına,
Sevinc verdi yurduna.

İman nuru gətirdi,
Füzuliyə, Hadruta.
Sevinirdi döyüşə
Gedəndə Cəbrayıla.

Ürəyində sevincin,
Göz yaşları axırdı.
O, yuxuda gördüyü,
Cəbrayıla baxırdı.

İlk baxışdan bilinir,
Yuxu-gerçək fərqlidir.
Cəbrayılın torpağın,
Ediblər darmadağın.

Qəhrəmanım bilirdi,
Buralar dirçələcək.
Qovuşacaq nuruna,
Yeni nəfəs gələcək.

Gəldi o yeni nəfəs,
Durdu Şuşa yolunda.
Onunla yeni müjdə,
Verildi Qəhrəmana.

Tural Şuşamız üçün,
Canına and içmişdi.
O, sözünü tutaraq,
Çox irəliləmişdi.

O, ruhuyla, qəlbiylə,
Günü-günə caladı.
Bu yolda yorulmadı,
İnamla addımladı.

# Tural - Vətən

Əzəldən mərd yaratdı,
Onu Uca Allahı,
Dün düşmən at oynatdı,
Görürdü o, sabahı.

Sabahı gözləyirdi,
Ümidin itirmirdi,
Deyirdi: "Dağ Veysəlli,
Ey yurdum, gözlə məni!"

Nə vaxt ki, o gənc Tural,
Oldu şanlı bir əsgər.
Ona ümid verdilər,
Bu elatlar, bu ellər.

O gündən müddət keçdi,
Əsgərlik vaxtı bitdi.
Üstün bildi o, hərbi,
Vətəninə xidməti.

O, dedi: "Nə qədər ki,
Nakamdır Dağ Veysəlli,
Səngərdə olacağam,
Əsgər də qalacağam.

Daxili Qoşunlarda,
4 il xidmət etmişdi.
Atəşkəs zamanında,
Belə xəyal etmişdi:

"Bir vaxt o gün gələcək,
Yurdun üzü güləcək.
Qarabağ bizim olub,
Yenə bizə dönəcək."

Ana Vətən söylədi:
"Turalım, o gün gəldi!"
Komandan əmrin verdi,
Ürək o gün dirçəldi.

Birə min artmış idi,
Turalımın sevinci.
O gün başladı çünki,
Vətən müharibəsi.

Qəhrəmanın istəyi,
O gün yerinə yetdi.
Şuşanı azad etdi,
Özü Cənnətə getdi.

Şəhid oldu Turalım,
Ana, qadanı alım,
Nikbin ol, al təsəlli,
Turalın Cənnətdədi.

"Tural" yaşamaq demək,
O, yaşayır hər zaman.
Ruhən gəlişi sevinc,
Cismən gedişi yaman.

Vətən canımdır mənim,
Din, imanımdır məmim.
Onsuz olsam həyat yox,
Son məkanımdır mənim.

Vətəndir Altay Vətən,
Vətəndir Ural Vətən.
Həmişə əbədidir,
Həmişə, Tural-Vətən.

***22.08.2021.***



Sevindik Nəsiboğlu